# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

**Q Ə R A R**

**№ SQ-03/2024-2**

**Naxçıvan şəhəri** **12 iyul 2024-cü il**

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması barədə**

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə Ağ Partiyasının İdarə Heyətinin 1 iyul 2024-cü il tarixli 3.1 və 3.2 saylı qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü və 48-ci maddələrinə əsasən

**q ə r a r a   a l ı r :**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Aslanov Mətləb Məhərrəm oğlu

Həşimov Hidayət Bəşir oğlu

Baxşəliyev Gülmalı Paşa oğlu

Aslanov Məhərrəm Məzahir oğlu

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Aslanova İlhamə Paşa qızı

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr:** | Əjdər Əliyev |
| **Katib:** | Əkrəm Hüseynzadə |